| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMİSSİYASI KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 26.11.2015 |
| Qeydiyyat nömrəsi | 3 |
| Adı | Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2012-ci il 15 may tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları"nda dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 04.12.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 190.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201511260003 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 03.12.2015 |

Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 6 aprel tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"nin 9.2 və 15-ci bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Kollegiyası **QƏRARA ALIR**:

1. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2012-ci il 15 may tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəli"ndə (Əlavə 2) baza ali tibb təhsili səviyyəsində "Müalicə işi, pediatriya", "Stomatologiya", "Tibbi–biologiya" və "Tibbi-profilaktika" istiqamətləri (fakültələri) üzrə baza fənləri (sütun 3) sırasına "Histologiya" fənni əlavə edilsin;

1.2. "Rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəli"ndə (Əlavə 2) baza ali tibb təhsili səviyyəsində "Müalicə işi, pediatriya" və "Stomatologiya" istiqamətləri (fakültələri) üzrə baza fənləri (sütun 3) sırasında qeyd edilmiş "Patoloji anatomiya" və "Patoloji fiziologiya" fənləri "Patologiya" fənni ilə əvəz edilsin;

1.3. “Rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəli”ndə (Əlavə 2) baza ali tibb təhsili səviyyəsində “Tibbi–biologiya” və “Tibbi-profilaktika” istiqamətləri (fakültələri) üzrə baza fənləri (sütun 3) sırasına “İnsan anatomiyası” fənni əlavə edilsin;

1.4. “Rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəli”ndə (Əlavə 2) baza ali tibb təhsili səviyyəsində “Tibbi–biologiya” və “Tibbi-profilaktika” istiqamətləri (fakültələri) üzrə baza fənləri (sütun 3) sırasında qeyd edilmiş “Patoloji fiziologiya” fəni “Patologiya” fənni ilə əvəz edilsin;

1.5. “Rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəli”ndə (Əlavə 2) baza ali tibb təhsili səviyyəsində “Tibbi-profilaktika” istiqaməti (fakültəsi) üzrə baza fənləri (sütun 3) sırasına “Farmakologiya” fənni əlavə edilsin.

2. Bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Bu qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Kollegiyasının 26.11.2015-ci il tarixli iclasının protokolu.

Kollegiyanın sədri Məleykə Abbaszadə